# SPORTSMAN 150

№ 150 / 2024 / 10 manat www.sportsman.az Jurnal 2004-cü ildən nəşr olunur


# PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏ İDMAN SARAYININ AÇILIŞINDA






# MONARCH PREMIUM RESIDENT

ALANYA / KARGICAKTA SİZLER İÇİN ÖZEL OLARAK İNŞAA EDİLMİŞTİR.












Monarch Premium Resident, İtalyan mimarisinden ilham alarak tasarlanmış, içi ve dışıyla gerçekten dikkat çekici bir proje olup Kargıcak'ın en kaliteli ve prestijli lüks konut projesidir. Bu muazzam daireler, alışveriş ve yemek merkezlerine yakın, denize yürüme mesafesinde yer almakta olup aynı zamanda bütün dairelerimiz deniz manzarasına sahiptir. Monarch Premium Resident, yaşamınıza değer katacak bir lüks deneyim sunmaktadır. Sizi bu benzersiz konut projesini keşfetmeye davet ediyoruz!

İnşaatı tamamlanan dairelerimiz Antalya / Alanya - Kargıcak bölgesindedir.
Dairelerimizin tamamı deniz manzaralıdır.
3+1 Doublex Daireler 450.000 €'dan, 2+1 Doublex Daireler 460.000 €'dan
ve 1+1 Geniş Daireler 250.000 €'dan başlayan fiyatlarla...

İletişim için
Whatsapp Hattı:
+90 555 170 90 03

Adres : Kargıcak, Maklinistler Sk.
No:3, 07400
Alanya / Antalya




(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

salon@offissa.com

www.offissa.com

offissa.dizayn

Offissa Dizayn

Offissa Dizayn

Onlayn Kataloq

AGRO-WEST
Distribution Company

Orjinal dad və
yüksək keyfiyyəti
**evinizə gətiririk!**

www.agrowestdc.az

# AZART EXCLUSIVE CAR STYLING

Azərbaycanda lüks sinif avtomobillərin yüksək keyfiyyətli tuningi, restaylı və bərpası.




- TUNİNG İŞLƏRİ
- EHTİYYAT HİSSƏLƏRİ
- RESTAYL - FACELİFT
- İNTERYER DİZAYN
- VİNİL İŞLƏRİ
- KARBON ÜZLƏNMƏ
- SƏS BOĞUCU SİSTEMİN YIĞILMASI
- AUDİO SİSTEM
- DİSKLƏRİN BƏRPASI
- DƏMİRÇİ İŞLƏRİ
- BATIQLARIN BƏRPASI
- RƏNGSAZ-MALYAR
- MÜHƏRRİK İŞLƏRİ
- ÇİLİNGƏR
- ELEKTRİK
- DİAQNOSTİKA
- ADAPTASİYA
- KİMYƏVİ TƏMİZLƏMƏ
- POLİROVKA
- KERAMİKA 9H PRO

Address: AZ1001
Azerbaijan Baku
Faiq Yusifov 71,
(Nərimanov keçmiş Pekin restoranının yanı)

Address: AZ1001
Azerbaijan Baku
Yusif Vəzir Çəmənzəminli 5
(Olimpik Star idman kompleksinin yanı)

azart_tuning
tuningservice.az
www.az-art.az

+99455 855 77 66
+99450 978 55 55

DÜNYA MEBELİ BİR ÜNVANDA,
BİR MƏKANDA!

BİZİM EV
MEBEL ŞƏHƏRİ

BAKI-SUMQAYIT ŞOSSESİ
7-Cİ KM / RİYAD TİCARƏT MƏRKƏZİ

*5115

www.bems.az

# BU SAYIMIZDA




Prezident İlham Əliyev Gəncə İdman Sarayının açılışında

səh.6





Hidayət Heydərov və Zelim Kotsoyev dünya çempionu

səh.10





Dünya Olimpiya Təsnifat turniri

səh.16





150-ci nömrəyə həsr olunan bouling yarışı

səh.18





Ülviyyə Fətəliyeva Avropa Çempionu!

səh.24





“Prezident Kuboku-2024” beynəlxalq reqata

səh.28





V “Raquf Orucov kuboku” beynəlxalq turniri

səh.32





Azərbaycan “Vindzor Kral Atçılıq Şousu”nda

səh.36





“Azərreyl” - çempion!

səh.40





"AİJA fk" Beynəlxalq Media Kubokunun qalibi

səh.46



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*



Ünvan: Bakı, Fətəli Xan Xoyski 10, Tofiq Bəhramov adına Respublika Stadionu
Telefon: 012 511 23 45
e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az



Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Reklamlarda gedən mətnlərə görə jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nın və İdman.biz saytının materiallarından istifadə edilib.


***Üz səhifədə:***

Prezident İlham Əliyev cənabları, gənclər və idman naziri Fərid Qayıbov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov

# PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏ İDMAN SARAYININ AÇILIŞINDA




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Gəncə İdman Sarayının açılışında iştirak edib. Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısını Gəncə İdman Sarayında yaradılan şərait barədə ətraflı məlumatlandırıb.***

Qeyd edək ki, uzun illərdir ölkəmizdə Olimpiya və idman hərəkatı geniş vüsət alıb. Ötən illərdə Azərbaycanda onlarla Olimpiya İdman Kompleksi və digər idman qurğuları tikilib. Bu isə ölkəmizdə idmana marağı artırıb, gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri üçün geniş imkanlar yaradıb. Gəncədə istifadəyə verilən İdman Sarayı da bu qəbildən layihələr arasında xüsusi yer tutur.

Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən inşa edilən Gəncə İdman Sarayının tikintisinə 2018-ci ilin iyununda başlanılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin martında tam başa çatdırılıb.

Gəncə İdman Sarayı müasirliyi ilə diqqəti cəlb edir. Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan İdman Sarayında bütün zəruri infrastruktur yaradılıb. Böyük zalda beynəlxalq standartlara uyğun olaraq basketbol, voleybol, həndbol, minifutbol və atletika oyunlarının keçirilməsi nəzərdə tutulub. Bu zalda 2200





nəfərlik sabit oturacaq yeri olan tribuna, 850 nəfərlik mobil oturacaq və fiziki məhdudiyyəti olan tamaşaçılar üçün 20 yer ayrılıb. Burada, həmçinin VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələr və konfrans zalı yaradılıb.

Qeyd olundu ki, İdman Sarayındakı üzgüçülük hovuzu Beynəlxalq Üzgüçülük Federasiyasının standartlarına cavab verir. Hovuzun uzunluğu 50, eni 21 metr, dərinliyi isə 3 metrdir. Burada 4 metr, 2,2 metr və 1,2 metrə qədər qalxa bilən mobil hərəkətli döşəmə də quraşdırılıb. Zalda üzgüçülük yarışlarını 1400-dən çox tamaşaçı izləyə biləcək. Fiziki məhdudiyyəti olan tamaşaçı üçün isə 16 yerlik ərazi təşkil olunub. Üzgüçülük hovuzu da VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələrdən ibarətdir.

Gəncə İdman Sarayının kiçik zalı müvafiq olaraq 2, 3 və 4 yerə bölünmək imkanına malikdir. Burada ağır atletika, güləş, cüdo və boks zalları, müxtəlif təyinatlı otaqlar fəaliyyət göstərəcək və idmanın ayrı-ayrı sahələri tədris ediləcək.



Nəhəng idman qurğusunda Beynəlxalq İdman Atıcılığı Federasiyasının (ISSF) standartlarına uyğun atıcılıq zalı, həmçinin müxtəlif ölçülü yoqa, pilates, atletika, fitnes, boulinq, masaüstü tennis, şahmat, kross-fit zalları, SPA mərkəzi, bilyard



masası, uşaq otağı, 3 konfrans zalı, böyük restoran, kofe-breyk bölmələri və marketlər fəaliyyət göstərəcək.

Gəncə İdman Sarayının əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Səksən nömrəsi olan mehmanxanada 160 idmançının qalması və istirahəti üçün hər cür imkan var.

Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolaqları salınıb, istirahət guşələri yaradılıb, müşahidə kameraları quraşdırılıb.

Belə nəhəng idman qurğularının yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.





*“Sportsman” jurnalının kollektivinə!*

*Sizi "Sportsman" jurnalının 150-ci sayı münasibətilə təbrik edirəm.*

*Ölkəmizdə idmanın təbliğində, qazanılan uğurların və inkişafının işıqlandırılmasında, idmançıların və mütəxəssislərin tanıdılmasında, irimiqyaslı yarışların işıqlandırılmasında "Sportsman" jurnalının xüsusi rolu var.*

*İllər ərzində jurnal öz dəsti-xətti ilə seçilib, uğurla fəaliyyət göstərib, oxucuların sevilən nəşrlərindən birinə çevrilib. Nəşrin gələcəkdə daha da inkişaf edəcəyinə və geniş oxucu auditoriyası qazanacağına inanıram.*

*Jurnalın kollektivini yubiley sayı münasibətilə bir daha təbrik edir, fəaliyyətinizdə yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***
***gənclər və idman naziri***
***Fərid Qayıbov***



AZE

GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ



# HİDAYƏT HEYDƏROV VƏ ZELİM KOTSOYEV DÜNYA ÇEMPİONU

***May ayının 19-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə cüdo üzrə dünya çempionatı başlayıb. Mayın 23-dək davam edəcək dünya çempionatında 100-dən çox ölkədən 700-ə yaxın idmançı gücünü sınayıb. Azərbaycan millisi turnirdə qadınlar və kişilər arasında 8 çəki dərəcəsi üzrə ümumilikdə 11 cüdoçu ilə təmsil olunub.***

Cüdoçularımızdan Hidayət Heydərov və Zelim Kotsoyev dünya çempionu tituluna sahib çıxıblar. Bununla da Azərbaycan millisi tarixi uğura imza ataraq, ilk dəfə mundialı 2 qızıl medalla bitirib. Yığmamız bu nəticə ilə Yaponiya (3-2-4), Gürcüstan (2-1-1) və Cənubi Koreyadan (2-0-3) geri qalmaqla komanda hesabında 4-cü pillədə qərarlaşıb.

73 kq-da çıxış edən idmançımız yarışa ikinci mərhələdən




başlayıb. Akil Qyakovaya (Kosovo) qalib gələn dördqat Avropa çempionumuz 1/8 finalda Salvador Roça (İspaniya) ilə münasibətinə aydınlıq gətirib. O, növbəti qələbəsini qazanaraq 1/4 finala yüksəlib. Ardınca Daniel Karqninə (Braziliya) qalib gələn cüdoçumuz yarımfinala adlayıb. Finalın bir addımlığında İqor Vandtkeni (Almaniya) məğlub edən Hidayət həlledici görüşə vəsiqə qazanıb. Titul uğrunda qarşılaşmada onun rəqibi təcrübəli Tatsuki İşihara (Yaponiya) olub. Vazzari xalı ilə geridə olan Hidayət sona 10 saniyə qalmış ippon fəndi işlədərək, dünya çempionatının qızıl medalına sahib çıxıb.

100 kq-da mübarizə aparan cüdoçumuz Zelim Kotsoyev də mübarizəyə ikinci mərhələdən başlayıb. O, ilk görüşündə Yunq-Hun Vonqu (Cənubi Koreya) məğlub edib. Kotsoyev 1/8 finalda israilli Peter Palçiklə güləşib və uğurlu seriyanı davam etdirib. Cüdoçumuz 1/4 finalda Nikoloz Şerazadişvilidən (İspaniya) də güclü olaraq yarımfinala yüksəlib. Zelim finala gedən yolda portuqaliyalı Jorj Fonseka üzərində də qələbə qazanıb. O, həlledici görüşdə Şadi Elnahasla qüvvəsini sınayıb və görüşdən qalib ayrılıb. Qızıl medala sahib çıxan Zəlim, BƏƏ-də ikinci dəfə Azərbaycan himnini səsləndirib.

Qeyd edək ki, Kotsoyev Daşkənd-2022 və Doha-2023 dünya çempionatlarında bürünc medal sahibidir.

## Birinci vitse-prezident Mehriban Əliyeva cüdoçu Hidayət Heydərovu təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstagram" səhifəsində cüdoçu Hidayət Heydərovu dünya çempionu titulu uğrunda yarışlarda qələbə qazanması münasibətilə təbrik edib: "Cüdoçu Hidayət Heydərovu dünya çempionu titulu uğrunda yarışlarda qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Mükəmməl çıxış edən idmançımız yenilməz iradə, əzmkarlıq və məharət nümayiş etdirərək parlaq və inamlı qələbə qazandı! Gərgin əməyinə, Azərbaycan azarkeşlərinə bəxş etdiyi sevincə görə cüdoçumuza təşəkkür edir, ona möhkəm cansağlığı, yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!"



## Hidayət Heydərov: "Növbəti hədəfim Parisdir!"

"Bu gün Mehriban xanım Əliyevanın paylaşımını gördüm, çox sağ olsun. Mənə xüsusi dəyər verdi. Hər şey üçün çox sağ olsunlar. Azərbaycan xalqının dəstəyini hiss edirdim. Sevincimə mənimlə birgə şərik olduqları üçün azarkeşlərə təşəkkür edirəm. Bu yolda mənə kömək olan Gənclər və İdman Nazirliyinə, Azərbaycan Cüdo Federasiyasına, vitse-prezident Elnur Məmmədliyə minnətdaram.

Kimlə güləşməyimdən asılı olmayaraq, məqsədim qələbə qazanmaq idi. Çünki əvvəllər yarımfinalda məğlub olmuşdum. Vazzari xalı ilə geri düşməyimə baxmayaraq, özümü itirmədim, sadəcə qələbəyə köklənib nə olursa-olsun udmaq barədə düşünürdüm. Bunun nəticəsində vaxtın bitməsinə cəmi 10 saniyə qalmış fənd işlətdim. Bu texnikadan yalnız kritik anlarda istifadə edirəm. Bilirdim ki, alınacaq. Beləcə yaponiyalı rəqibim Tatsuki İşiharanı ipponla məğlub edib dünya çempionu adına sahib çıxdım.

Qarşıdan Paris-2024 Yay Olimpiya Oyunları gəlir. Olimpiadada da qızıl medal götürəcəm. Bu yarışa necə hazırlaşmışdımsa, ora da elə hazırlaşacam.

Qeyd edək ki, Hidayət Heydərov 11 ildən sonra Azərbaycana yenidən qızıl mükafat qazandırıb. Sonuncu dəfə bu titulu 2013-cü ildə Braziliyada təşkil olunmuş mundialda Elxan Məmmədov qazanmışdı.







### Zelim Kotsoyev: “Qələbə sevinci bəxş etdiyim üçün çox xoşbəxtəm”

"Dünya çempionatına tam köklənmişdim. Əvvəlki 2 mundialda 2 bürünc qazanmışdım. Finala çıxdıqdan sonra qələbədən başqa variant olmadığını düşündüm. Çünki artıq 2 dəfə mükafatçı olmuşdum, çempion olmağın vaxtı idi. Çox çalışdım, səbrlə döyüşdüm və istəyimə çatdım. İndi qarşıda bizi Paris-2024 Yay Olimpiya Oyunları gözləyir. Yaxşı hazırlaşıb, orada da məqsədə çatmaq arazusundayam.

Döyüşə çıxarkən azarkeşlərin dəstəyini daima hiss edirdim. Burada bizim böyük komandamız var. Bu dəstək mənə əlavə güc verirdi. Hamıya təşəkkür edirəm. Onlara qələbə sevinci bəxş etdiyim üçün çox xoşbəxtəm".





SPORTSMAN 150

***"Sportsman" jurnalının kollektivinə!***

*"Sportsman" jurnalının 150-ci sayı kollektivin gərgin, məhsuldar əməyinin, peşəkarlığının bariz göstəricisidir. Bu münasibətlə jurnalın yaradıcı heyətini Milli Olimpiya Komitəsi adından təbrik edirəm.*

*Sizin ölkədaxili və beynəlxalq yarışlarda idmançılarımızın, məşqçilərimizin qazandığı uğurların təbliğində zəhmətiniz böyükdür. İdmanın və Olimpiya Hərəkatının inkişaf tarixini özündə əks etdirmək baxımından 150-ci sayı çıxan bu jurnal ötən 20 il ərzində səmərəli fəaliyyət göstərib. Jurnal bu illər ərzində fəaliyyətini uğurla davam etdirərək, öz dəsti-xəttini qoruyub və çoxsaylı oxucuların rəğbətini qazanıb.*

*Jurnalın 150-ci sayının işıq üzü görməsi münasibəti ilə bir daha sizi təbrik edir, jurnalın kollektivinə yaradıcılıq uğurları arzulayıram!*

***Çingiz Hüseynzadə,***
***Milli Olimpiya Komitəsinin***
***vitse-prezidenti***



AZƏRBAYCAN

**Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi**




# ELXAN MƏMMƏDOV:
# HİDAYƏT "YAPON SİNDROMU"NU QIRDI

***Azərbaycanın cüdo üzrə ilk dünya çempionu olan, gənclərdən ibarət milli komandanın baş məşqçisi Elxan Məmmədov AZƏRTAC-ın suallarını cavablandırıb. Həmin müsahibəni təqdim edirik.***

- Hidayət Heydərov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanaraq sizə məxsus olan rekordu təkrarladı. Bununla bağlı təəssüratınızı bilmək maraqlı olardı...

- 11 ildən sonra Azərbaycana ikinci dünya çempionu gəldi. Çox qürurverici haldır. Bu qələbə hər birimizin sevincinə səbəb oldu. Hidayət həqiqətən möhtəşəm çıxış etdi. Son bir ildə göstərdiyi əzmkarlıq bu çempionluğa layiq olduğunu sübut etdi. Finalda yaponiyalı rəqibi ilə keçirdiyi dramatik görüş həyəcanı bir qədər də artırdı. Belə təhlükəli rəqib üzərində son 10 saniyədə qazanılan qələbə idmançının iddiasından, hazırlığından və keçdiyi məşq prosesindən xəbər verir. Hidayət yarışa çox ciddi hazırlaşmışdı. Hamıya bəllidir ki, dünya çempionatı sıradan yarış deyil, həqiqətən də olduqca nüfuzlu turnirdir. Azərbaycanın 52 illik cüdo tarixində ilk dünya çempionu mənəmsə, ikinci Hidayətdir. Bu da mundialın nə qədər baxımlı turnir olduğunu göstərir. Bu, doğrudan da böyük uğurdur. Bunun arxasında böyük işlər, zəhmət dayanır. Nailiyyətimiz Azərbaycan Cüdo Federasiyası başda olmaqla, Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsinin birgə səylərinin nəticəsidir. Ölkəmizdə cüdonun inkişafı göz qabağındadır. Buna hamı şahiddir. Digər dünya ölkələri də artıq bunu qəbul edirlər. Olimpiya Oyunlarında da güclü cüdo ölkəsi kimi tanınırıq. Azərbaycan cüdosu dünya reytinqində ilk sıralardadır. Ötən ay Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilmiş Avropa çempionatında komanda hesabında ikinci olduq. Yığmamız dünya çempionatında da ilk sıralarda qərarlaşmağa iddialıdır.

**- Yəqin ki, Hidayətin görüşünü izlədiniz. Finalda sona 13 saniyə qalmış etdiyi kritik fəndlə dünya çempionu oldu. Həmin an hansı hissləri keçirdiniz?**

- Hidayətin görüşünü izləyirdim. O, qələbə qazananda yalnız sevinc və qürur hissi keçirdim. Mən də yığma komandanın məşqçisiyəm. Hidayətin hazırlığında mənim də rolum var. Təcrübələrimizi onunla bölüşürdük. Uğurunda hər birimizin danılmaz əməyi var. Dünya çempionatı kimi mötəbər turnirdə bayrağımızı qaldırdı. Bundan qürurverici heç nə ola bilməz. Qalib ölkəyə qələbə yaraşır.

**- Məlum olduğu kimi, Azərbaycan 13 ildən sonra cüdo üzrə dünya çempionatında qızıl medal qazandı. Sizcə, ikinci dünya çempionunun yetişməsi üçün niyə bu qədər uzun vaxt lazım oldu?**

- Bəzi mütəxəssislərin fikrincə, cüdo üzrə dünya çempionatı Olimpiya Oyunlarından da dramatik keçir. Çünki mundiallarda bir ölkədən hər çəkidə iki cüdoçu çıxış edə bilər. Ona görə də burada rəqabət çox güclü olur. Yaponiya və Fransa kimi cüdonun inkişaf etdiyi ölkələrin yarışa iki idmançı ilə qatılması təbii ki, rəqabəti daha da artırır. Məhz buna görə dünya çempionatında belə bir nəticəyə imza atmaq sıradan hadisə deyil. Mən 42 ildən sonra - 2013-cü ildə dünya çempionatının qalibi tituluna yiyələndim. Bu, mundialın dünya miqyasında nə qədər çətin, populyar və rəqabətli yarış olduğunu göstərir. 2013-cü ildən sonra Orxan Səfərov və Rüstəm Orucov bu nəticəyə yaxın olublar. Təəssüf ki, onlar da qızıl medal əldə edə bilməmişdilər. Amma Hidayətdə olan döyüşkənlik və mübarizə ruhu onun bu titula sahib çıxmasına səbəb oldu. Açığı, Azərbaycan cüdosunda "yapon sindromu" deyilən bir şey var. Orxan da, Rüstəm də 2017-ci ildə təşkil olunan mundialda Yaponiya təmsilçilərinə məğlub olmuşdular. Ancaq Hidayət bu sindromu tamamilə qırdı. Döyüşkənliyi və əzmkarlığı nəticəsində arzusuna çatdı. Belə bir yarışda bu cür çətin mərhələni adlamaq onun genetikasından və xarakterindən doğan bir şeydir.

**- Hidayət Heydərov son bir ildə əla nəticələr əldə edib. Ötən ay Avropa, bu ay isə dünya çempionu oldu. Sizcə, cüdoçunun karyerasındakı yüksəlişin səbəbi nədir?**

- Hidayət Azərbaycanın milli komandasına cəlb olunandan həmişə yığmanın aparıcı üzvü olub. O, 2015-ci ildən bəri öz sözünü deyir. Məhz bu il federasiya tərəfindən görülən işlərin sayəsində özünü daha yaxşı tərəfdən göstərə bildi. Son 1 ildə daha da formalaşıb, təcrübəsini artırıb. O, həmişə məşqçilər tərəfindən verilən tapşırıqları yerinə yetirərək peşəkar idmançı kimi tatamiyə çıxır. Hər şeydən öncə Hidayətdə son zamanlar peşəkarlıq görürəm. Olduqca iddialıdır. Əsl peşəkar idmançıda olan xüsusiyyətləri onda görə bilirəm. Çox əziyyət çəkir. Bunun nəticəsidir ki, Avropada və dünyada öz bacarığını sübut etdi.



**- Qarşıda "Paris-2024" Yay Olimpiya Oyunları var. Hidayət Heydərovdan nüfuzlu yarışda hansı nəticəni gözləyirsiniz?**

- Dekabr-yanvar aylarında bir az söhbət etdik. Ona bu il çox hazırlıqlı və yaxşı formada olduğunu bildirdim. Bunun böyük şans olduğunu söylədim. Dedim ki, həyatdır, hər an hər şey ola bilər, bu şansdan yaxşı istifadə etməlisən. Söhbət əsnasında söz verdi ki, bu il həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olacaq. İlk iki turnirdə dediyini etdi. Təbii ki, biz onun Olimpiadada da yaxşı nəticələrə imza atacağına inanırıq. Parisdə də fəxri kürsünün ən yüksək pilləsinə qalxmağını gözləyirik.

**- Azərbaycan cüdoçuları dünya çempionatında hələlik bir medal qazana biliblər. Digər idmançıların zəif çıxışını necə izah edərdiniz?**

- Bu, idmandır. Dünya çempionatında hər çəkidə aparıcı cüdoçularımız qüvvəsini sınayır. Biz onlardan da nəticə gözləyirik. Ümidvaram ki, alınacaq. Bir sıra aparıcı ölkələr var ki, onların aktivində ümumiyyətlə medal yoxdur. Əsas odur ki, millimiz bir qızıl mükafat əldə edib. Bunun davamının gələcəyinə əminik.

**- Böyük ümidlərlə yığmaya cəlb edilən Səid Mollayi hələlik zədə səbəbindən potensialını tam olaraq aça bilmir. Bu barədə nə deyə bilərsiniz?**

- Səid Mollayi 81 kiloqramda dünya miqyasında iddialı idmançılarımızdan biridir. Bu zamana kimi əldə etdiyi nailiyyətlərdən xəbərdarıq. Son vaxtlar ciddi və böyük zədələr alıb. İdmançı üçün zədədən sonra yenidən formaya düşmək çox çətin olur. Bunun üçün kifayət qədər zaman lazımdır. İdmançı zədədən çıxır, sonra əvvəlki intensiv məşqlərinə qayıtmaq istəyir, lakin yenidən zədələnir. Bunun öhdəsindən gəlmək üçün xarakter lazımdır. Ümid edirəm ki, Səid də qısa zamanda zədələrini bərpa edəcək və yığmaya geri dönəcək.

***Mayın 9-dan 12-dək Türkiyənin İstanbul şəhərində güləş üzrə Dünya Olimpiya Təsnifat turniri keçirilib. Paris-2024 Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan son yarışda ölkəmizi 4 yunan-Roma güləşçisi və 5 qadın güləşçi təmsil edib. I-S kateqoriyalı hakim Asif Şirəliyev isə turnirə ədalət qoruyucusu kimi qatılıb. Reqlamentə görə, hər çəki dərəcəsində ilk 3 yeri tutan (yarımfinalda və bürünc medalçılar arasında keçirilən görüşdə qalib gələnlər) güləşçilər Olimpiadaya vəsiqə əldə ediblər.***




Yarışdan sonra Paris-2024 Yay Olimpiya Oyunlarında iştirak edəcək güləşçilərin tam siyahısı bəlli olub. Parisdə 290 pəhləvan mübarizə aparacaq. Dünya çempionatı və təsnifat turnirlərindən sonra ümumilikdə 288 lisenziya sahibini tapıb. Beynəlxalq Olimpiya Komitəsi sərbəst güləş və yunan-Roma güləşində Qaçqınların Olimpiya Komandasına (ROT) bir yer verib. Bu üzdən də Fransada 18 çəkidən ikisində 17, digərlərində 16 idmançı yarışacaq.

Azərbaycan Olimpiadada 12 güləşçi ilə təmsil olunacaq. Sərbəst güləş millimiz yarışa tam heyətlə yollanacaq. Komandada Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Turan Bayramov (74 kq), Osman Nurmaqomedov (86 kq), Maqomedxan Maqomedov (97 kq) və Giorgi Meşvildişvili (125 kq) yer alacaq.

Yunan-Roma millimiz yalnız bir çəkidən kənar qalıb. Bu növdə Murad Məmmədov (60 kq), Həsrət Cəfərov (67 kq), Sənan Süleymanov (77 kq), Rafiq Hüseynov (87 kq) və Sabah Şəriəti (130 kq) mükafat üçün yarışacaq. Qadın güləşində yeganə ümidimiz dördqat olimpiya mükafatçısı Mariya Stadnik (50 kq) çıxış edəcək.

Ümumilikdə Oyunlarda 58 ölkənin pəhləvanları güləşəcəklər. Parisdə mübarizəyə daha iki komanda da qatılacaq. Rusiya və Belarus idmançıları neytral statuslu atletlər (AİN) kimi xalçaya çıxacaqlar. Onlar kimi qaçqınların olimpiya komandası (ROT) da Oyunlarda çıxış edəcək.

12 lisenziyaya sahib Azərbaycan bu göstəricidə üçüncüdür. Dünya üçüncüsü olan ölkəmiz yalnız





ABŞ və Yaponiyadan geri qalır. Millimiz Avropada xalçanın lideri, əsl sahibidir. “Köhnə qitə”nin heç bir ölkəsi Azərbaycan qədər vəsiqə əldə etməyib. Heç bir ölkə Parisdə tam tərkibdə - 18 güləşçi ilə təmsil olunmayacaq. 58 ölkədən ən çox lisenziyaya sahib olan ABŞ-dır. Şimali Amerika ölkəsi Parisdə 15 çəkidə təmsil olunacaq. İkinci yerdə olan Yaponiyanın 13 vəsiqəsi var.

Ümumilikdə güləşin hər üç növündə təmsil olunmağa dünyanın 15 ölkəsi nail olub. Avropada isə yalnız 6 ölkə bütün növlərdə mübarizə apara-

caq. Bunlar Azərbaycan, Türkiyə, Bolqarıstan, Almaniya, Macarıstan və Polşadır.

Azərbaycan güləşçisi Mariya Stadnik müasir Olimpiya Oyunlarının tarixinə düşüb. 50 kq çəkidə mübarizə aparan idmançımız 1896-cı ildən keçirilən multi-idman yarışlarının tarixinin rekordunu təkrarlayıb.

Xanım pəhləvanımız ən çox Olimpiadada iştirak edən güləşçi adına şərik çıxıb. Bu idman növündə indiyədək 8 güləşçi 5 dəfə Oyunların iştirakçısı olub.

5 Olimpiadaya qatılan güləşçilərin siyahısında



Kris Braun (Avstraliya, sərbəst, 1980-96), Vilfred Ditrix (Almaniya, sərbəst/yunan-Roma, 1956-72), Xorlogiin Bayanmonx (Monqolustan, sərbəst, 1964-80), Çeslav Kvyeçinski (Polşa, yunan-Roma, 1964-80), Miyain Lopes (Kuba, yunan-Roma, 2004-2020), Corc Makkenzi (İngiltərə, sərbəst/yunan-Roma, 1908-1928), Mario Tovar Qonzales (Meksika, sərbəst, 1962-68) və Rışard Volnı (Pol-






şa, sərbəst, 1988-2004) yer alıb.

Onların arasında qadın güləşçi yoxdur. Bu isə o deməkdir ki, Pekin-2008, London-2012, Rio-2016 və Tokio-2020-nin iştirakçısı olan Stadnik, Parisə bilet əldə etməklə tarix yazıb. Düzdür, əvvəlki illərdə 4 Olimpiadaya qatılan daha 5 qadın güləşçi olub. Amma onlardan heç biri hələlik Paris-2024-ə vəsiqə qazanmayıb ki, Stadnikin rekorduna şərik çıxsın.

Parisə qədər 4 belə yarışa qatılan Mariya əv-



vəlki oyunların hamısında medal əldə edib. Güləşçimiz Pekin-2008 və Tokio-2020-də bürünc medal, London-2012 və Rio-2016-da isə yalnız finalda uduzaraq gümüşlə kifayətlənib.

Olimpiadalarda ən çox medal qazanan Azərbaycan idmançısı artıq iştirak sayında da mütləq rekordçudur. O, 4 dəfə Oyunlarda iştirak edən İradə Aşumovanı geridə qoyub. Güllə atıcımız Atlanta-1996, Afina-2004, Pekin-2008 və London-2012-yə qatılıb. Snayperimiz bu yarışlarda bir bürünc medal qazanıb.




# 150-Cİ NÖMRƏYƏ HƏSR OLUNAN BOULİNQ YARIŞI




***May ayının 21-i "Sportsman" jurnalı, 150-ci yubiley nömrəsinə həsr olunan KİV nümayəndələrinin, idman federasiyaları əməkdaşlarının, qazilərin və müğənnilərin iştirakı ilə boulinq yarışı keçirib.***

Yarışı, Gənclik Mall-da yerləşən "ONTOP" Boulinq Klubunun dəstəyi və tərəfdaşlığı ilə "Sportsman"in bütün tədbirlərinin aparıcısı olan Sənan Şəfizadə aparıb.

# BOULİNQ













Tanınmış idmançıların, idman ictimaiyyətinin, fəxri qonaqların və dostların iştirakı ilə keçirilən yarış maraqlı anlarla yadda qalıb. “ONTOP” Boulinq Klubunun marketinq direktoru Hüseynağa Əliyevin sözlərinə görə iştirakçılar yüksək oyun bacarığı nümayiş etdirdilər: “Oyunçuların 160-dən artıq xal toplamalarını sözün düzü gözləmirdik. Ancaq bu amil bizi sevindirdi. İştirakçılar həvəskar səviyyə üçün çox yaxşı oynadılar.





Fotoqraf Bəhruz Məmmədov 169 xalla 1-ci, 164 xalla voleybol məşqçisi Ziya Rəcəbov 2-ci, sevilən müğənnimiz, respublikanın əməkdar artisti Səlim Abbasov isə 161 xalla 3-cü yeri qazandı. Maraqlı tədbirə görə “Sportsman” jurnalının əməkdaşları Rəşad Qəmərşahoğluna və Etibar Hüseynova xüsusi təşəkkür edir, jurnalın yubi-









ley nömrəsinə görə isə bütün kollektivi təbrik edirəm”.

Tədbirin nəğməli qonaqları isə yarışa xüsusi rəng qatdı. İştirakçıların sözlərinə görə musiqi sədaları altında oynamaq çox xoş idi.

Turnirin qaliblərinə diplom və tərəfdaşlarımızdan xüsusi hədiyyələr təqdim olundu. Çay süfrəsi ilə davam

edən yarışdan fotoları diqqətinizə təqdim edirik.

***Kamal RZA***

***P.S. "Sportsman", tədbirin keçirilməsində göstərdikləri dəstəyə görə bütün zövqlərə uyğun ofis mebelinin tək ünvanı "Offissa Dizayn"a, hər kəsin payı olan "Payım" kolbasalarına,***








***nənələrimizin hazırladığı kompotların dadını xatırladan "Barlı" kompotlarına, "Xəzz" hədiyyə evinə, sevincli günlərin şirin anlarını yaşadan "İz" Kulinariyaya, "Royam Design"a, "Pay" şirniyyat evinə və "ONTOP BOULİNQ KLUBU"na xüsusi təşəkkürlərini bildirir.***




Offissa
Sizin idman jurnalınız
SPORTSMAN


Sport
Sizin idman jurnalınız
SPORTSMAN
DIPLOM


Offissa
Sizin idman jurnalınız
DIPLOM
ULINARIYA




2 ONTOP
3 ONTOP
4 ONTOP
5 ONTOP
6 ONTOP



*“Sportsman” jurnalının 150-ci sayının dərc olunması Azərbaycanda idmana və idman jurnalistikasına göstərilən diqqətin bariz nümunəsidir. Digər tərəfdən bu həm də Azərbaycan idmanının sürətli inkişafının göstəricisidir. Təbii ki, burada bir çox amillərin rolu var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti olması idmançılarımızda böyük ruh yüksəkliyi yaradır. İllərdir idmaçılarımız beynəlxalq yarışların mükafatçıları olaraq, Azərbaycan bayrağını dünyanın ən böyük arenalarında dalğalandırıblar. Eyni zamanda Azərbaycan beynəlxalq idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib və edir. Bu gün Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır.*

*Bütün bu uğurlarımızın təbliğində və işıqlandırılmasında 20 yaşlı “Sportsman” jurnalının da xidməti danılmazdır.*

*“Sportsman” jurnalının kollektivini dərginin 150-ci yubiley nömrəsinin dərc olunması münasibətilə ürəkdən təbrik edirəm. Jurnalist həmkarlarıma isə gələcək işlərində yeni-yeni yaradıcılıq uğurları arzulayıram.*

***Hörmətlə,***
***İlqar Paşazadə***
*“Mir” Dövlətlərarası Teleradio Şirkətinin*
*Azərbaycan Milli Nümayəndəliyinin direktoru,*
*Əməkdar jurnalist*

МИР



# ÜLVİYYƏ FƏTƏLİYEVA AVROPA ÇEMPİONU!

***Yunanıstanın Rodos adasında təşkil edilən qadın şahmatçılar arasında Avropa çempionatı bizim üçün düşərli olub. Azərbaycanın qadın şahmatçısı Ülviyyə Fətəliyeva qızıl medal qazanaraq Avropa çempionu olub.***

Doqquz turdan sonra 8 xalla turnir cədvəlinə başçılıq edən Üiviyyə, ən yaxın izləyicisini 1 xal qabaqlayırdı. X turda Gürcüstanlı Nina Batsiaşvili ilə heç-heçə edən təmsilçimiz 8,5 xalla rəqibləri üçün əlçatmaz olub. Beləcə, Ülviyyə Fətəliyeva şəxsi qitə çempionatında qızıl medal qazanan ilk azərbaycanlı xanım şahmatçı kimi tarixə düşüb. Qalib Ülviyyə Fətəliyevaya qızıl medal və kubok təqdim olunub.

Mərasimdə həmçinin müxtəlif nominasiyalar üzrə ən yaxşı performans nümayiş etdirən iti zəka sahibləri təltif olunublar. Təmsilçilərimizdən Günay Məmmədzadə və Səbinə İbrahimova xüsusi mükafata layiq görülüblər.





Yarışdan bir gün sonra, aprel ayının 30-u Beynəlxalq Şahmat Federasiyasının (FIDE) may ayı üçün reytinq cədvəli açıqlanıb. Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov (2734 xal) bir pillə geriləyərək 18-ci sırada qərarlaşıb. Əvəzində bir pillə irəliləyən digər qrossmeysterimiz Teymur Rəcəbov (2723) 27-ci yerə yüksəlib. Rauf Məmmədov 2651 xalla 87-ci sıraya geriləyib. Nicat Abasov isə yenə ilk "100-lük"dən kənarda qalıb.

Qadın şahmatçılardan Günay Məmmədzadə 2436 xalla 35-ci, Gövhər Beydullayeva 2412 xalla 45-ci, Xanım Balacayeva 2376 xalla 74-cü, Gülnar Məmmədova 2360 xalla 90-cı pillədə yer alıb. Ötən gün Avropa çempionu olan Ülviyyə Fətəliyeva (2378 xal) isə bir pillə irəliləyərək 72-ci sıraya qalxıb.

Qeyd edək ki, kişi şahmatçılar arasında reytinq cədvəlinə 2830 xalla norveçli Maqnus Karlsen başçılıq edir. Qadınlarda isə çinli Yifan Hou 2633 xalla birinci pillədə qərarlaşıb.

May ayının 6-sı gənclər və idman naziri Fərid Qayıbov Yunanıstanda keçirilmiş qadın şahmatçılar arasında Avropa çempionu olmuş Ülviyyə Fətəliyeva ilə görüşüb. Gənc idmançını böyük uğur münasibətilə təbrik edən F. Qayıbov, onun Avropa çempionluğunun ölkəmizdə şahmat idman növünün inkişafına töhfə verəcəyinə inandığını bildirib.

Görüşdə nazir müavini Mariana Vasileva, Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov, vitse-prezident Faiq Həsənov və məşqçi Yevgeni Tomaşevski də iştirak edib.





### *Ülviyyə Fətəliyeva:*
### Mehriban Əliyevanın təbriki məni xoşbəxt etdi

"Yarışı birinci pillədə başa vurduğu üçün çox sevincliyəm. Sadəcə, öz oyunuma fokuslanmışdım. Müdafiəni düzgün qurdum. Lakin həm mən, həm də gürcüstanlı rəqibim Nina Batsiaşvili müəyyən səhvlərə yol verdik. Hər şeyə baxmayaraq, Avropa çempionatı mənim üçün yaxşı macəra oldu. Avropa çempionatından öncə dostlarımla bu barədə danışmışdım. Onlar da bilirdilər ki, bu turnirdə heç bir ambisiyam yox idi.

Yarış mənim üçün gərgin keçdi. Şəxsi yarışlarda istədiyimi əldə edə bilmirdim. Uzun müddətdir bu uğura nail olmaq istəyirdim. Amma hər dəfə məğlubiyyətlə üzləşirdim. Lakin bu dəfə alındı. Çox möhtəşəm hisslərdir. Vətənimə qızıl medalla qayıtmaq qürurvericidir. Şükür ki, məqsədimə çatdım. Bu, indiyədək əldə etdiyim ən uğurlu nəticəmdir.

Birinci vitse-prezident Mehriban Əliyevanın təbriki məni xoşbəxt etdi. O, hər zaman zərif cinsin nümayəndələrinə qayğı göstərir. Buradan ona dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan Şahmat Federasiyasına, xüsusilə də federasiyamızın prezidenti Mahir Məmmədov və yığmamızın məşqçisi Yevgeni Tomaşevskiyə göstərdikləri dəstək və köməyə görə minnətdaram. Ailəm də öz növbəsində dəstəyini məndən əsirgəmədiyi üçün xoşbəxtəm".



***"Sportsman" jurnalının baş redaktoru cənab Rəşad Qəmərşahoğluna!***

*Sizi, "Sportsman" jurnalının yaradıcı kollektivini bu nəşrin 150-ci sayının işıq üzü görməsi münasibəti ilə təbrik edirəm.*

*Jurnal nəşrə başladığı ilk gündən ötən 20 il ərzində öz dəsti-xəttinə sadiq qalaraq uğurla fəaliyyət göstərir. Bu gün elektron medianın geniş vüsət aldığı bir zamanda çap mediasının onlarla rəqabətə girməsi heç də asan deyil. "Sportsman" jurnalı artıq neçə illərdir ki, peşəkarlığı sayəsində öz oxucularını qoruyub saxlaya bilir. Bunun nəticəsidir ki, jurnal 150-ci sayının çapdan çıxmasını çoxsaylı oxucuları ilə birlikdə qeyd edir.*

*Jurnalda maraqlı və rəngarəng müsahibələr, yerli və beynəlxalq idman xəbərləri, federasiya və klublar haqqında ətraflı məlumatlar verilir. İdmanın bütün növləri jurnalda işıqlandırılaraq, yüksək səviyyədə oxuculara təqdim olunur.*

*150-ci yubiley sayınızın işıq üzü görməsi çox əlamətdar bir hadisədir.*

*"Sportsman" jurnalının yaradıcı kollektivinə gələcəkdə də yeni-yeni yaradıcılıq uğurları arzulayıram.*



***Murad Fərzəliyev,***
*Əməkdar jurnalist,*
*Milli Olimpiya Komitəsinin mətbuat katibi,*
*"Olimpiya dünyası" qəzetinin baş redaktoru*

AZERBAIJAN
Olimpiya dünyası
www.olimpiyadunyasi.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

# "PREZİDENT KUBOKU-2024" BEYNƏLXALQ REQATA




***Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş avarçəkmə üzrə "Prezident Kuboku-2024" beynəlxalq reqatası aprel ayının 30-u iştirakçı komandaların rəsmi paradı ilə başlayıb.***

Mingəçevir şəhərinin mərkəzində təşkil olunan paradda Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, İspaniya, Yunanıstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Polşa, Macarıstan, Serbiya, Tacikistan, Ukrayna, Estoniya, Sloveniya, Xorvatiya və Özbəkistan komandaları iştirak ediblər. Şəhər sakinlərinin böyük coşqu ilə qarşıladığı paradın sonunda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının prezidenti Vüqar Əhmədov, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, turnirdə iştirak edən xarici federasiyaların rəhbərləri və idman ictimaiyyətinin nümayəndələri Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək, Ümummilli Liderin xatirəsinə ehtiramlarını bildiriblər.

May ayının 1-də isə "Prezident Kuboku-2024" reqatasının açılış mərasimi keçirilib. Suqovuşanda təşkil olunan tədbir Azərbaycan Respublikası-









nın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Gənclər və İdman Nazirliyinin (GİN) İdman şöbəsinin müdiri Elnur Məmmədov bildirib ki, əvvəlki illərdən fərqli olaraq, budəfəki yarışda daha çox ölkənin idmançıları iştirak edirlər. Nazirlik rəsmisi "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazanan Azərbaycan avarçəkəni Diana Dımçenkonu da təbrik edib.

Azərbaycan Avarçəkmə və Kanoe Federasiyasının baş katibi Fərhad Əliyev tarixi torpaqlarda bu cür yarışın keçirilməsinin böyük uğur olduğunu vurğulayıb.

Suqovuşanda start götürən reqatanın beynəlxalq səviyyəli yarış olduğunu xatırladan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə turnirin davamlı olmasını arzulayıb.

Qeyd edək ki, “Prezident Kuboku-2024” beynəlxalq reqatasında 20-dən çox ölkədən 30-a





qədər komanda iştirak edib. Suqovuşanda start götürən yarış, mayın 2-3-də Mingəçevir Kür Olimpiya Tədris-İdman Mərkəzində davam edib.

Xatırladaq ki, Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən "Prezident Ku-





boku” reqatası Avropa Kanoe Assosiasiyasının (ECA) rəsmi təqvim planına daxil edilib.

## Azərbaycan avarçəkənləri "Prezident Kuboku"nu 9 medalla başa vurublar

May ayının 3-ü Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş avarçəkmə üzrə "Prezident Kuboku-2024" beynəlxalq reqatasına yekun vurulub.

Mingəçevirdə yerləşən "Kür" Olimpiya Tədris-İdman Mərkəzində təşkil olunan yarışın son günündə 200, 1000, 1500 metr məsafələrdə kayak-kanoe və akademik növdə mübarizə baş tutub. İbrahim Məmmədzadə və Sərhad Fərhadlı (2010-2011) ikinəfərlik kayak qayığında 200 metr məsafəyə yarışda bürünc medal qazanıblar.

Akademik növdə 1500 metr məsafəyə yarışda Nurlan Paşayev 2-ci, bu növdə mübarizə aparan Vacib Babayev və Qiyas Əhmədov cütlüyü isə (500 metr) 3-cü olublar. Fariz Babayev və Nurlan Paşayev cütlüyü 1500 metr məsafəyə yarışda fəxri kürsünün 3-cü pilləsinə qalxıb.

Niyaz Məlikov-Emil Zeynalov cütlüyü isə kayak qayığı ilə 1000 metr məsafədə (2008-2009) gümüş medal qazanıb.

Beləliklə, Azərbaycan avarçəkənləri yarışı 9 medalla başa vurublar. Əlimurad Hacızadə (qızıl), Nurlan Paşayev (gümüş), Vacib Babayev və Qiyas Əhmədov cütlüyü (bürünc), Amil Ramazanov (bürünc) medal əldə ediblər.

Qaliblərə mükafatları gənclər və idman naziri Fərid Qayıbov, Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyanın prezidenti Vüqar Əhmədov, baş katib Fərhad Əliyev, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov və Serbiya Avarçəkmə Federasiyanın İdarə Heyətinin rəhbəri Duşan Kovaçoviç təqdim edib.








# V "RAQUF ORUCOV KUBOKU" BEYNƏLXALQ TURNİRİ

***Aprel ayının 30-da Bakı İdman Sarayında cüdo üzrə V "Raquf Orucov kuboku" klublararası beynəlxalq turnir keçirilib.***

Turnir 2016-cı ilin Aprel döyüşlərinin şəhidi, əfsanəvi kəşfiyyatçı, polkovnik-leytenant Raquf Orucovun timsalında torpaqlarımızın işğaldan azad olunması, dövlətimizin suverenliyinin təmin olunması uğrunda canlarını qurban verən bütün şəhidlərimizin xatirəsinə həsr edilir.

Azərbaycan Cüdo Veteranları Assosiasiyasının prezidenti, Azərbaycan Cüdo Federasiya-









sının İcraiyyə Komitəsinin üzvü, ustalar və veteranlar arasında dünya və Avropa çempionatlarının qalibi, “Judo Club 2012” idman klubunun təsisçisi Azər Əsgərovun təşəbbüsü, Azərbaycan Gənclər və İdman Nazirliyinin və Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə təşkil olunan ənənəvi turnirdə ölkəmizlə yanaşı Türkiyənin, Rusiyanın (Fərdi Neytral İdmançılar), Türkmənistanın, Macarıstanın və Gürcüstanın 20 yaşadək cüdoçularından (U-20) ibarət 13 komanda mübarizə aparıb.

Xatırladaq ki, dostluq, əməkdaşlıq və vətənpərvərlik ruhu aşılayan turnirin əsası 2017-ci ildə qoyulub. İdman ictimaiyyətinin böyük maraq göstərdiyi turnir 2018, 2019-cu illərdə də keçirilib. Koronavirus pandemiyası ilə əlaqədar yaranmış fasilədən sonra, ötən ilin noyabrında – dövlət suverenliyimizin tam bərpa olunduğu bir dövrdə turnir yenidən bərpa olunub.

Yarışın rəsmi açılış mərasimi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Rəşadətli Ordumuzun Zəfərinə və Raquf Orucovun döyüş yoluna, həmçinin turnirin tarixinə həsr olunmuş videoçarxlar nümayiş olunub.

Mərasimdə dövlət və hökumət nümayəndələri, parla-



ment üzvləri, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi veteranları və tanınmış idmançılar iştirak ediblər.

Açılış mərasimində çıxış edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə idmanın inkişafından, Olimpiya hərəkatından, idmançılarımızın qazandığı qələbələrdən söz açıb, həmin qələbələrin daim xalqımızı ruhlandırdığını vurğulayıb. O, torpaqlarımızın azadlığı uğrunda şəhid olan hərbçilərin xatirəsinin daim əziz tutulduğunu bildirib. Böyük mənəvi-tərbiyəvi əhəmiyyət daşıyan turnirin təşkilatçılarının fəaliyyətini yüksək dəyərləndirən ədib, idmançılara uğurlar arzulayıb.

Milli Məclis sədrnin müavini Adil Əliyev Azərbaycanın idman ölkəsi kimi dünyada tanındığını, Ulu Öndər Heydər Əliyevin bu sahənin dirçəlişində müstəsna rol oynadığını, Prezident İlham Əliyevin idmanın inkişafına xüsusi diqqət göstərdiyini, idmançılarımızın beynəlxalq arenalarda böyük uğurlar qazandığını qeyd edib. O, əfsanəvi kəşfiyyatçı Raquf Orucovun xatirəsinə həsr olunmuş turnirin həm ölkəmizdə idmanın inkişafına yönəldiyini, həm də şəhidlərə ehtiramı ifadə etdiyini bildirib. Adil Əliyev haqq savaşımızda qəhrəmanlıq göstərərək şəhid olan Vətən oğullarının döyüş yolunun gənc nəsil üçün örnək olduğunu, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhidlərin xatirəsini daim əziz tutduqlarını, eləcə də şəhid ailələrinin bütün problemlərinin həlli istiqamətində dəyərli işlər görüldüyünü qeyd edib. O, beynəlxalq turnirin gənc nəslin vətənpərvərlik ruhunda tədrbiyəsinə mühüm təsir göstərdiyini vurğulayaraq, bu mötəbər ənənəvi tədbirin əvvəlkilər kimi indi də yüksək sə-








# RAGUF ORUJOV CUP



viyyədə təşkilinə görə yarışın təşəbbüskarı Azərbaycan Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü, usta cüdoçular arasında dünya və Avropa çempionatlarının dəfələrlə qalibi Azər Əsgərova minnətdarlıq bildirib.

Gənclər və İdman Nazirliyinin sektor müdiri Aydın Məmmədov isə çıxışında turnir iştirakçılarını nazirliyin adından salamlayaraq hər zaman belə yarışlara dəstək olduqlarını qeyd edib.

Daha sonra mərasimdə çıxış edən şəhid Raquf Orucovun həyat yoldaşı, “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin rəhbəri Sevinc Orucova ənənəvi turnirin Azərbaycan Cüdo Veteranları Assosiasiyasının prezidenti Azər Əsgərovun təşəbbüsü ilə 2017-ci ildən keçirildiyini diqqətə çatdıraraq təşkilatçılara minnətdarlığını bildirib. Xalqımızın qəhrəmanlıq salnaməsi olan Aprel döyüşlərinin hər kəs tərəfindən iftixarla xatırlandığını deyən Sevinc xanım, şəhidlərin müqəddəs əməllərini layiqincə qiymətləndirmək və bunu gələcək nəsillərə çatdırmaq üçün belə yarışların mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Rəsmi və bədii hissə başa çatdıqdan sonra Azərbaycan Cüdo Federasiyası prezidentinin müşaviri Natiq Bağırov turniri açıq elan edib.

Turnirin finalında "Edelveys" (Fərdi Neytral İdmançılar) və "Judo Club 2012" komandaları qarşılaşıblar. Azərbaycan təmsilçiləri rəqibinə qalib gələrək kuboku və qızıl medalları qazanıblar. Bürünc medallara "Atilla" İdman Klubu (Azərbaycan) və Macarıstan komandası layiq görülüblər. Qaliblər diplom, medal və pul mükafatları ilə təltif olunublar.

***Vidadi Baxşiyev***







# AZƏRBAYCAN “VİNDZOR KRAL ATÇILIQ ŞOUSU”NDA

***Mayın 6-da Böyük Britaniyada keçirilən “Vindzor Kral Atçılıq Şousu”nda Azərbaycan nümayəndə heyətinin tamaşaçılar tərəfindən böyük coşqu ilə qarşılanan çıxışları uğurla başa çatıb.***



Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat xidmətinin məlumatına görə, tərkibinə DSX-nin rəqs ansamblı, 20 Qarabağ cinsli atdan ibarət süvarilər dəstəsi və “Land of Fire” polo komandasının daxil olduğu nümayəndə heyətinin tədbirdə iştirakı Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə baş tutub.

Mötəbər tədbirdə təmsilçilərimiz tərəfindən çılğınlığı və gözəlliyi ilə özünə heyranlar ordusu toplamış, performansı ilə xüsusi seçilən Qarabağ atları, ecazkar milli musiqimiz və zərif Azərbaycan rəqslərindən ibarət olan “Koroğlu” adlı şou-kompozisiya təqdim edilib.

100 mindən artıq tamaşaçının izlədiyi şou-kompozisiyada Koroğlu rolunu Azərbaycanın xalq artisti Yusif Eyvazov və əməkdar artist Tural Ağasiyev, Nigar rolunu əməkdar artist Afaq Abbasova və Fatimə Cəfərzadə peşəkarlıqla ifa ediblər.

Milli musiqi alətlərimizin ifasında “Qarabağ cəngisi”nin bənzərsiz sədalarından, əməkdar artist Fərid İbrahimovun rəhbərliyi ilə “Sərhədçi” rəqs ansamblının hərarətli rəqslərindən, Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində igidlik və hünər nümunələrindən, qeyri-adi perfomanslarından ibarət şou-kompozisiya Böyük Britaniya tamaşaçısının xüsusi marağına səbəb olub. Şou müddətində süvarilərimiz Azərbaycan Respublikası və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırıblar.





Tədbirdə Heydər Əliyev Fondunun dəstəyi ilə tariximizi, mədəniyyətimizi və xalçaçılıq sənətini özündə tərənnüm edən “Azerbaijan Cultural” tenti qurulub və iştirakçıların böyük marağına səbəb olub.

Milli mətbəximizin nümunələrinin təqdim olunduğu və Kral ailəsinin üzvlərinin iştirak etdiyi Azərbaycan naharında ləziz təamlarımız xüsusi rəğbətlə qarşılanıb. Nahar zamanı təmsilçilərimizin təqdim etdikləri şou-kompozisiya böyük maraqla izlənilib.



“Vindzor Kral Atçılıq Şousu” çərçivəsində Azərbaycan nümayəndə heyəti Böyük Britaniyanın Kralı III Çarlz ilə görüşüb, tanınmış heykəltaraş Faiq Hacıyevin “Zəfər adlı Dilbaz atı” əsəri və Rəssamlar İttifaqının üzvü Elnur Mahmudovun qədim gümüş alətlərinin təsvir olunduğu rəsm əsəri hədiyyə edilib.




May ayının 4-də Elçin Camallının baş məşqçisi və kapitanı olduğu Azərbaycanın “Land of Fire” komandası ilə Böyük Britaniyanın ən nüfuzlu “Guards Polo Club” komandası arasında yoldaşlıq oyunu baş tutub. Dünya atçılığına “Çövkən” oyununu bəxş etmiş Azərbaycan təmsilçiləri ilə Avropada polo oyununun təşəkkül tapdığı Böyük Britaniya komandası arasında ilk yoldaşlıq görüşü kimi əlamətdar olan və gərgin mübarizə şəraitində keçən qarşılaşma 6:4 hesabı ilə komandamızın xeyrinə başa çatıb.





# "AZƏRREYL" - ÇEMPİON!




***Aprel ayının 22/23-ü tarixlərində kişi və qadın voleybolçular arasında Azərbaycan çempionu bəlli olub. Yüksək Liqada qızıl medalların taleyinə bu iki gündə keçirilən final oyunlarında aydınlıq gəlib.***

**Bakı İdman Sarayında təşkil olunan kişi voleybolçuların həlledici matçında "Azərreyl" və "Murov Az Terminal" komandaları görüşüb. Gərgin mübarizə əzmində keçən qarşılaşmada "dəmiryolçular" 3:2 hesabı ilə qalib gəliblər. Beləcə "Azərreyl" tarixində ilk dəfə Azərbaycan çempionu adına sahib çıxıb.**

**"Murov Az Terminal" isə ardıcıl 3-cü dəfə ölkə çempionu tituluna yiyələnmək şansını qaçırıb.**





Növbəti gün qadın voleybolçulardan ibarət Azərbaycan çempionatının qalibi müəyyənləşib. Bakı İdman Sarayında baş tutan final matçında "Azərreyl" və "Abşeron" kollektivləri üz-üzə gəlib.



İlk set 25:13 hesabı ilə "Azərreyl"in xeyrinə başa çatıb. "Abşeron" isə ikinci seti 25:15 öndə tamamlayıb. Sonra ardıcıl iki setdə 25:21 üstün olan "Azərreyl", rəqibini 3:1 hesabı ilə məğlub edərək Azərbaycan çempionu olub.




Sonra qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

Tədbirdə gənclər və idman nazirinin müavini Mariana Vasileva, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Azər Əliyev, Azərbaycan Voleybol Federasiyasının prezidenti Şahin Bağırov, vitse-prezidenti Faiq Qarayev, ölkəmizdə səfərdə olan Gürcüstan Voleybol Federasiyasının prezidenti Georgi Kartvelişvili, həmçinin nazirlik və federasiyanın digər rəsmi şəxsləri iştirak ediblər.

Öncə kişilərin yarışında mükafatçılar təltif olunub. “Neftçi” bürünc, “Murov Az Terminal” gümüş, “Azərreyl” qızıl medallarına qovuşub. Qadınların yarışında 3-cü olan “Murov Az Terminal”, finalda uduzan “Abşeron” və ardıcıl 2-ci çempionluğunu qazanan “Azərreyl” mükafatlandırılıb. Tədbir Yüksək Liqa yarışlarında mövsümün bağlanışı ilə yekunlaşıb.

Sonda yüksək Liqada ən yaxşı oyunçular mükafatlandırılıblar.

Qadın voleybolçular arasında Azərbaycan çempionatının ən yaxşıları açıqlanıb.

Yüksək Liqanın ən yaxşıları mükafatlandırma mərasimində təltif olunublar.

“Azərreyl”in voleybolçusu Katarina Pilepiç MVP seçilib. Ən gənc və perspektivli oyunçu adına Raziyə Əliyeva (“Azərreyl”) layiq görülüb.

**Rəmzi komanda:**

***Toppaylayıçı: Polina Neykova (“Abşeron”)***

**Hücumçular:** Peralta Luna (“Azərreyl”), Elvina Milanoviç (“Murov Az Terminal”)

Libero: Piyanot Pannoy (“Azərreyl”)

Blokçular: Mariya Kirilyuk (“Abşeron”), Xineli Martines (“Azərreyl”)

Diaqonal oyunçusu: Marietta Runiç (“Abşeron”)






## Orxan Kərimov

*“Azərreyl” VK-nın prezidenti*

“Çox gözəl oyun keçdi. Azərbaycan voleybol tarixində belə finala şahidlik etməmişdik. Bir neçə il ardıcıl Azərbaycan çempionuna, avrokubok təcrübəsi olan komandaya qarşı oynamaq heç də asan deyil. Çünki “Azərreyl”in kişi komandası ikinci mövsümdür ki, çıxış edir. Klub 2019/2020 mövsümündə yaradılıb. O zaman da pandemiya dövrünə təsadüf etdiyi üçün çempionat dayandırılıb. Demək olar ki, ilk dəfə “Azərreyl” kişi komandası bu mövsüm mübarizə aparıb və finala qədər gəlib. Həlledici matç barədə nəsə danışmaq isə çox çətindir. Set sayları və ümumi hesab matçın nə dərəcədə gərgin keçdiyini göstərir. Rəqib komandanı da gözəl mübarizə apardıqları üçün təbrik edirəm. “Azərreyl” çox yaxşı nəticə əldə etdi. Oyunçulara, məşqçi və inzibati heyətimizə çox sağ ol düşür. Bu, birgə əməyin nəticəsidir. Demək olar ki, debütant komanda çempion oldu. Bir ssenarini canlı yaşadıq.

Ümid edirəm ki, növbəti mövsümdə də güclü heyətlə çıxış edəcəyik. Həmçinin qeyri-adi bir hal baş verməsə, avrokuboklarda iştirak etmək və yaxşı nəticə qazanmaq niyyətindəyik. Daha çox yerli və gənc oyunçularımızı milliyə hazır etmək istəyirik. Hazırda da klubumuzda belə 5 gənc oyunçu var. Əlbəttə ki, gənclər böyük oyunçuların yanında inkişaf edirlər. Onlara da bu şansı yaratdığımız üçün qürurluyuq.





# MƏHƏMMƏD CALUD: "AVROPA QİTƏSİNDƏN AZƏRBAYCANI SEÇƏCƏYİK"

***May ayının 14-ü Milli Olimpiya Komitəsində (MOK) Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (IWF) prezidenti Məhəmməd Caludla görüş olub.***




Tədbirdə Azərbaycanla IWF arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanda ağırlıqqaldırmanın böyük ənənələrinin olduğunu deyən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə federasiyanın yeni inkişaf yoluna başladığını diqqətə çatdırıb: "Ölkəmizdə ağırlıqqaldırma üzrə kifayət qədər dünya, Avropa çempionatlarının qalibi və mükafatçıları var. Bu gün Azərbaycanda ağırlıqqaldırma idman növünün inkişafı üçün federasiya rəhbərliyi səmərəli işlər həyata keçirir. Ümid edirik ki, bu iş uğurla başa çatacaq və ağırlıqqaldıranlarımız Yay Olimpiya Oyunlarında uğurla iştirak edəcəklər".

Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (IWF) prezidenti Məhəmməd Calud Azər-



baycanda olmaqdan məmnunluğunu bildirib. Rəhbərlik etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verən qonaq, ağırlıqqaldırma idman növündə dopinqə qarşı mübarizənin vacibliyindən danışıb və bu kimi halları minimuma endirdiklərini diqqətə çatdırıb: “Azərbaycanda səfərdə olduğum müddətdə ağırlıqqaldırma üzrə məşq bazası ilə tanış oldum. Orada bir sıra gənc ağırlıqqaldıranların məşqini izlədim. Onların çıxışı mənə böyük ümid verdi. İnanıram ki, bu gənclər özlərini 2028-ci ildə Los-Ancelesdə keçiriləcək Olimpiya Oyunlarında doğruldacaqlar”.

IWF rəhbəri, həmçinin Azərbaycanda yeni akademiyanın yaradılması məsələsinə də toxunub: “Bizim bir sıra layihələrimiz var. Onlardan biri də məşqçilərlə bağlıdır. Məşqçilərin hazırlanması ilə bağlı yeni qaydalar hazırlanır. Akademiya yaratmaq üçün biz beş qitənin hərəsindən bir ölkə seçəcəyik. Avropa qitəsindən isə Azərbaycanı seçməyi düşünürük. Belə ki, beynəlxalq dərəcəli məşqçi olmaq istəyən şəxslər Bakıya gələcək, imtahandan keçərək sertifikatlar alacaqlar. Düşünürəm ki, bu Azərbaycan üçün çox önəmli olacaq”.

MOK-un baş katibi Azər Əliyev Azərbaycan Ağırlıqqaldırma Federasiyasının gördüyü işlərdən danışıb. Ölkədə yeni, gənc ağırlıqqaldıranların yetişdiyini deyən A.Əliyev onların qarşıdan gələn dünya, Avropa çempionatlarında, “Los-Anceles-2028” Yay Olimpiya Oyunlarında və digər beynəlxalq yarışlarda uğurla çıxış edəcəklərinə inandığını bildirib.

Azərbaycan Ağırlıqqaldırma Federasiyasının prezidenti Kamran Nəbizadə Məhəmməd Caludun səfərinin Azərbaycanda ağırlıqqaldırmanın inkişafına böyük təsiri olacağını vurğulayıb: “Bu gün əsas məqsədimiz milli komandada nizam-intizamı gücləndirmək, dopinqə qarşı mübarizə aparmaq və regionlarda bu idman növünün inkişafını təmin etməkdir. Düzdür, atletlərimiz “Paris-2024”ə lisenziya qazana bilmədilər. Amma çalışacağıq ki, idmançılarımızın Los-Anceles Olimpiadasında iştirakına nail olaq. Bundan başqa, İspaniyada gənclər arasında dünya çempionatı təşkil olunacaq ki, bu yarışa da geniş heyətlə yollanmağı düşünürük. Əsas məqsədimiz gənclərlə işləyərək regionlarda yeni bazalar yaratmaqdır”.

Tədbirin sonunda Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının prezidenti Məhəmməd Caluda və Azərbaycan Ağırlıqqaldırma Federasiyasının prezidenti Kamran Nəbizadəyə xatirə hədiyyələri təqdim olunub.




# "AİJA FK" BEYNƏLXALQ MEDİA KUBOKUNUN QALİBİ

**Razılıq versək də, ermənilər turnirdə bizimlə qarşılaşmaqdan çəkindilər.**

Bunu mediaya açıqlamasında Azərbaycan İdman Jurnalistləri Assosasiyasının (AİJA) prezidenti Eldar İsmayılov idman jurnalistlərindən ibarət minifutbol komandamızın Moldova paytaxtı Kişinyovda keçirilən ənənəvi Beynəlxalq Media Kubokunda çıxışını dəyərləndirərkən deyib. Sonra qeyd edib ki, püşkatmadan öncə bizdən onlarla oynamaq istəyib-istəmədiyimizi








soruşdular. Razılıq verdik. Hər halda, beynəlxalq yarışdır. Ermənilər isə çəkindilər. Onlar sonradan heç öz qruplarından da çıxa bilmədilər”.

E.İsmayılov bütün oyunları qələbə ilə bitirib çempion olduqlarını söyləyib: “Çox gərgin yarış keçdi. İlk oyunda Almaniya komandasını böyük hesabla məğlubiyyətə uğratdıq. Daha sonra İsraillə qarşılaşdıq. Bu komandada əsasən ukraynalı jurnalistlər çıxış edirdilər. Aralarında peşəkarlar da vardı. Son dərəcə hazırlıqlı olmalarına baxmayaraq, onları 1:0 hesabı ilə məğlub etdik. Üçüncü oyunda Moldovanı 4:2 üstələyərək yarımfinala yüksəldik. Bu mərhələdə gürcüstanlı həmkarlarımızla qarşılaşdıq və qələbə qazandıq. Finalda isə Rumıniyaya böyük hesabla qalib gələrək tam qələbə qazandıq və çempion kubokunu Bakıya gətirdik”.

O, 2014-cü ildə Kişinyov turnirində ikinci yeri tutduqlarını xatırladıb: “Moldovanın idman jurnalistləri assosiasiyası hər





il beynəlxalq Media Kuboku təşkil edir. 2014-cü ildə də həmin yarışda iştirak etmişdik. Komandamızın kapitanı rəhmətlik Elnur Əşrəfoğlu idi. O vaxt finalda Moldova komandası ilə qarşılaşdıq. Rəqibin heyətində o vaxtkı ölkə prezidentinin oğlu da oynadığı üçün nəyin bahasına olur-olsun, qələbə qazanmağa çalışırdılar. Həmin vaxt ikinci olduq. Ötən il sponsor tapa bilmədiyimiz üçün bu yarışa gedə bilmədik".

Qeyd edək ki, Avropa Media Kubokunun finalında Rumıniyanı 7:3 hesabı ilə məğlub edən Azərbaycan yığması ilk dəfə çempion tituluna yiyələnib.

***AİJA MƏTBUAT XİDMƏTİ***

***P.S. AİJA, komandamıza göstərdiyi dəstəyə görə Azərbaycan Minifutbol Federasiyasına minətdərlağını bildirir.***









# "BAKI SÜRƏT FESTİVALI"




May ayının 25-i Azərbaycan Avtomobil Federasiyasının, "Caspian Event Organisers" və "Bakı Şəhər Halqası" Əməliyyat şirkətlərinin birgə təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə "Bakı Sürət Festivalı" keçirilib. Festival çərçivəsində avtomobil sərgisi təşkil edilib. Sərgidə müxtəlif brend avtomobillərin test-drayvı olub.




Ən yaxşı drift pilotlarının ekstremal şəraitdə öz bacarıqlarını və sürücülük məharətlərini göstərdikləri drift şousu festivalın tamaşaçıları tərəfindən maraqla qarşılanıb. Onlar avtomobil sənayesinin aparıcı istehsalçılarının ən son yeniliklərini kəşf etmək imkanı qazanıblar.




Tədbirdə bütün dünyada çoxsaylı pərəstişkarları cəlb edən dinamik yürüşləri ilə tanınan “Legend Cars Challenge Baku” yarışı da keçirilib. Yarışda 1930-1940-cı illərin klassik ABŞ üslubunda hazırlanmış avtomobillərdən istifadə olunub. Güclü “Yamaha” motosiklet mühərrikləri ilə təchiz edilmiş bu avtomobillər sürətli və manevr qabiliyyəti ilə seçilir.







İdman üslubunda hazırlanmış klassik avtomobillərin xüsusi quraşdırılmış trasda yarışı olub. Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən “Legend Cars Challenge Baku” yarışının qalibi Elçin Həsənov olub. Murad Həsənov ikinci, Gülhüseyn Abdullayev isə üçüncü yeri tutublar.




Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Qeyd edək ki, festivalın məqsədi regionda avtomobil idmanını populyarlaşdırmaq, eləcə də avtomobil sənayesində son nailiyyətləri nümayiş etdirmək üçün platforma yaratmaqdır.




PALIDDAN
HAZIRLANMIŞ
KÖMÜR
УГОЛЬ ДРЕВЕСНЫЙ
100% ORGANIC
RUSİYA MƏHSULU
Bizim manqal kömürümüz!
+99455 390 36 11
a.mamedov65@gmail.com

barlı

C vitaminli, bol meyvəli
Barlı kompotları içün!




Ziya Bünyadov 2096
Bakı, Azərbaycan
info@barli.az

+99450
+99455
+99470
749 22 22

www.barli.az



FILTREX
Filtrex ilə suyunuz
şirin gələcək!
Bizim məhsullarda
DETOX
filtri də var!
+99450 224 61 05
www.filtrex.az

# AZART FK











ÖVLADLARINIZIN SAĞLAM, AKTİV VƏ EYNİ ZAMANDA GÜCLÜ OLMASINI İSTƏYİRSİNİZ? O ZAMAN ONLARI FUTBOL MƏŞQLƏRİNƏ YAZDIRIN!

ƏLAQƏ NÖMRƏSİ : +99455 869 08 08

WWW.AZART-GROUP.COM

AZART.FK






**Göyçay Bioloji Təbabət Klinikası**



**Masallı Bioloji Təbabət Klinikası**



**Sumqayıt Bioloji Təbabət Klinikası**

Bioloji Təbabət Klinikası

# BİOLOJİ TƏBABƏT KLİNİKASI

(012) 430 89 89
(050) 430 89 89
bioloji.tebabet
biolojitebabetklinikasi

btk.az
info@btk.az
Bakı şəhəri, 3 mkr., S.C. Pişəvəri küç 110
M.Əcəmi m.st. yaxınlığı


BOOOL
SÜTLÜ
Golf
MARAŞIM
INTERNATIONAL TASTE INSTITUTE
2019
BRUSSELS
ÜSTÜN
LEZZET
ÖDÜLÜ
MARAŞ'TA
ÜRETİM
Golf
MARAŞIM
sade
Golf
Tadını Çıkar!